# ŞƏKİLLƏRDƏ YAŞAYAN XATİRƏLƏR

*Bu şəkillərin yaşı onillərlə ölçülür. Ən cavanı 35 il əvvəl Səmərqənddə, Buxarada çəkilib. Ötən əsrin 80-ci illərin əvvəllərində Azərbaycana İrandan pənah gətirmiş onlarca mübariz, belə desək Orta Asiyanı da birgə turist gəzintisində gəzmək imkanı əldə ediblər. Amma ən təsirlisi onların ideya ata-babalarının "21Azər" Hərəkatında və mühacirət illərində necə səmimi, həmməslək, bir amal sahibi və mehriban olduqlarını özlərində əks etdirən yadigar şəkillərdir. Bu fotolarda biz inqilabın tanınmış simalarından olan, ömrünün sonuna kimi Azərbaycan Demokrat Firqəsinə rəhbərlik edən general Qulam Yəhya Daneşianın, onun məsləkdaşlarının mərd simalarını görürük. Qucaqlara sığınan uşaqların hər biri indi müxtəlif sahələrin görkəmli mütəxəssisləri olmaqla yanaşı, özləri babalıq sevincini yaşayırlar.*

*Digər şəkildəki şəxslər Azərbaycan ədəbi mühitinə xalq şairi, yazıçı, elmlər doktoru, qələmi ilə şöhrət qazanan şəxslər kimi Azərbaycan ictimaiyyətinə tanışdır. Sağ qalanlara uzun ömür diləyirik, əbədiyyətə qovuşanların ruhları şad olsun.*



*Qulam Yəhya Daneşian məsləkdaşları ilə*



*Bir qrup şair və yazıçı, Bakı, 1987-ci il*



*Gənc şairlər yaşlı yazıçılarla bir yerdə, Bakı 1970-ci il*



*Buxara şəhərində, 1985-ci il*

## Fransada deportasiyadan qorxan mühacir pasportunu yedi



**Fransanın Tuluza şəhərində Qambiyadan olan qanunsuz mühacir deportasiyadan yayınmaq üçün pasportunu yeyib. Oxu.Az bu barədə "La Depeche"yə istinadən xəbər verir.**

Məlumata görə, 34 yaşlı Bubakar adlı adam Fransada sığınacaq almağa cəhd edib, amma həbs edilib və deportasiya üçün Tuluza aeroportuna gətirilib. Mühacirin vətənə qayıtmamaq istəyi o qədər güclü olub ki, sərhəddə nəzarət-keçid məntəqəsində sənədlərini təqdim etməsi üçün müraciətin cavabında o, pasportunun foto və haqqında məlumat olan səhifələrini cıraq udub.

Daha sonra o, polislər ilə mübahisəyə başlayıb, təyyarə kapitanı qəzəblənmiş sərnişini göyərtəyə buraxmaqdan imtina edib. Bubakar iki ay müddətinə azadlıqdan məhrum edilib, amma cəza müddəti bitdikdən sonra o, Qambiyaya deportasiya ediləcək.

***

Tayland hökumətinin, Myanmadan yola çıxan və 350 immiqrant daşıyan mühacir gəmisinin geri qaytarılması üzrə 1 həftədir Andaman dənizində həyat mübarizəsi verən qaçqınların 10-nun həyatını itirdiyi bildirildi. Dənizdə qalanlar arasında qadın və uşaqların da olduğu ifadə edilərkən, gəmi ekipajının mühərriki söndürərək gəmidən ayrıldıqları öyrənildi.

İndoneziya, Malayziya və Taylanda sığınmaq istəyən qaçqınları geri qaytarılması üzərinə yüzlərlə qaçqının Tayland və Malayziya sahillərində qaldığı bildirilir.

**İtaliya dövləti bir layihə təqdim edibdir ki, ona əsasən, hər il 150 min mühacir qəbul ediləcək.**

## İtaliyada hər il 150 min mühacir qəbul olunacaq

İtaliyanın Ray Nyus telekanalının məlumatına görə, bu ölkə dövlətinin ən yeni layihəsinə əsasən, İtaliya hər il 150 min mühacir qəbul edəcək. Bu layihənin reallaşmasından ötrü həmin şəxslər üçün minlərlə qəbul mərkəzi və digər münasib sistemlər nəzərdə tutulmalıdır.

2016-cı ilin iyulunda dəniz vasitəsilə Liviyadan mühacirlərin geniş surətdə İtaliyaya daxil olmalarından sonra, eləcə də onların bu ölkənin Lombardiya vilayətindəki sərt şəraitinə görə, həmin şəxslər küçələr və stansiyalarda qalırlar.

Mühacir qəbulu üçün nəzərdə tutulmuş mərkəzlər himayə sistemlərinə malik olaraq, sonda onlardan 15-20 nəfərə yer verəcəkdir.

İtaliyanın cənub məntəqələri, o sıradan bu ölkənin Aralıq dənizindəki adaları mühacirlərin Avropaya daxil olmaları üzrə əsas məkanlardan sayılır.



# Xoş gördük, "Mühacir"!



*Tariyel Ümid,*
*İranlı Mühacirlər Cəmiyyəti Ədəbi Birliyinin sədri*

Ötən əsrin 40-cı illərindən bəri Milli demokratik ədəbiyyatımız bir neçə dəyişikliyə məruz qalıb. Öncə 1941-ci ildən sonra zamanın ictimai-siyasi zərbələri altında şahlıq üsul-idarəsinin çökməsi dönəmində və bir də 1941-1945-ci illərdə milli azadlıq inqilabı zamanı. Sonralar sənət dünyasında görkəmli şair və yazıçılıq zirvəsinə çatan Balaş Azəroğlu, Əli Tudə, Söhrab Tahir, Mədinə Gülgün, Hökümə Billuri həmin dövrün yetişdirmələri idilər.

1946-cı ildən etibarən mühacirət dövrü başlandı. Sovet hakimiyyəti zamanı Arazın bu tayında yaşayan qardaşlarına pənah gətirən Əli Tudə "Mən nə gətirdim" şeirində deyirdi

***Mən öz qardaşıma mehman gələndə***
***Bir qələm, bir dəftər, bir can gətirdim.***
***Dağların döşünü toplar deşəndə,***
***Bir ləkə düşməyən vicdan gətirdim.***

Bu şeir mühacirətdə yaşayan İran Azərbaycanı yazıçılarının manifestinə çevrilmişdi.

Balaş Azəroğlunun Ömər Xəyyam rübaisi şirinliyində yazdığı, dillər əzbəri olan və hər yerdə rəğbətlə qarşılanan misraları yada düşür:

***Yəqin bu halımı duymusan sən də,***
***Mən heç içməyirdim dostlar içəndə.***
***Amandı sərhəddi qatar keçəndə,***
***Doldur piyaləni Arazdan mənim.***

Söhrab Tahirin dil-ağızı yandıran şeirləri adamı ayağa qaldırırdı. Onun şeirləri mərdlik nəğmələri idi. Heç vaxtı sevgi, sevgili qarşısında göz yaşı tökməyən, haqsızlıq önündə əyilməyən şair, Vətən həsrətindən yazanda odu, alovu insanı qarsardı.

***Mən Vətən deyirəm yanır dil, dodaq,***
***Vətən də ağızda alovlanarmış.***

Mədinə Gülgünün könül tərənələri adamı heyrətə salırdı. Günəbaxan gözləri hər nöqtədən Vətənə baxırdı.

***Yenə nə dolmusan nə çağlayırsan,***
***A mənim özümdən havalı könlüm.***
***Yenə gizlin-gizlin nə ağlayırsan,***
***Kimdən öyrənmisən bu halı könlüm.***

Çox keçmədi ki, iranlı mühacirlərin Azərbaycanda yazıçılar cəmiyyəti yarandı. Həmin cəmiyyətdən çıxan neçə-neçə ediblər Azərbaycan milli demokratik ədəbiyyatı klassiklərinə çevrildilər.

Hörmətlə adlarını çəkdiyim şair və yazıçılarımızın Azərbaycan ədəbiyyatında onun tərəqqisi uğrunda özlərinə məxsus yerləri var.

Fəthi Xoşgünabi, Abbas Pənahi (Makulu), Firuz Sadıqzadə, Qulamrza Cəmşidi, Sabir Nəbioğlu, Əyyub Nəmini, Məmmədrza Afiyət, Qulamhüseyn Bəydili, Həmid Məmmədzadə, Səyyad Kərimli, Qəhrəman Qəhrəmanzadə.

Şairlərdən İsmayıl Cəfərpur, Əbülfəz Hüseyni, Aşıq Hüseyn Cavan, Hüseyn Ciddi, Xavər Qəhrəmani, İman İntizar, Tofiq Qaffari, Arif Səfa....

Zamanında oxunub, sevilən Abbas Pənahinin (Makulu) "Səttarxan" romanı geniş oxucu kütləsinin rəğbətini qazanmışdı. Firuz Sadıqzadənin "Tüfənglə ölçülən torpaq" kitabı əldən-ələ gəzirdi. Məmmədrza Afiyətin Təbriz hekayələri xalq arasında lətifələrə çevrilmişdi.

Qulamrza Cəmşidinin "Hacı Kərimin aya səyahəti" əsəri böyük səhnədə göstərilirdi.

Hüseyn Ciddinin təmsilləri Krılovun nümunələri kimi hikmətli və mənalı idi.

Həmid Məmmədzadə bir alim, nasir kimi Şəhriyarı Azərbaycan oxucularına tanıdan alimlərdən ilki idi.

Onlar İran Azərbaycandan gəlmiş mühacir yazıçılar cəmiyyətinin üzvləri idilər. Beləliklə bizim mühacirət ədəbiyyat yaranırdı. Vaxt keçdi, Balaş Azəroğlu, Söhrab Tahir, Hökümə Billuri Azərbaycanın xalq şairləri adına layiq görüldülər. Əli Tudə Mədinə Gülgün fəxri adlar aldılar.

Belə demək mümkünsə ikinci dövr ədəbiyyata gələnlər bu illəri əhatı edir.

1970-ci ildən etibarən "Gənc qələmlər" ədəbi dərnəyi təşkil tapdı. Gənc yazıçılar həftədə bir dəfə yığışaraq öz şeir və hekayələrini, nəsr nümunələrini müzakirə edirdilər. Ədəbi dərnəyimizə Azərbaycanın tanınmış şairləri dəvət olunurdu. O cümlədən Mirzə İbrahimov, Süleyman Rüstəm, Məmməd Araz, Xəlil Rza Ulutürk, Nəbi Xəzri, Cabir Novruz, Zəlimxan Yaqub, Qabil... cavan yazarlara nə yazmağın, necə yazmağın yollarını öyrədirdilər. Vətənpərvərlik hissləri aşılayırdılar.

Cavan yazarlar respublikanın mərkəzi mətbuatında çap olunurdu. Neçə-neçə istedadlı gənclərin kitabları çıxdı. Onların adları yəqin ki, sizə tanışdı. Əyyub Sədi, Bəxtiyar Ərşad, Pərviz Əliyev, Nazim Rizvan, Zeynəb Musazadə, Dilşad, Arif Səfa, Fərəhnaz Şeybani, Şahin....

Bəxtiyar Ərşadın tələbəlik həyatında yazdığı şeiri hələ də xatırlanır:

***Yenə yada düşdü tələbəliyim, -***
***Həyatım tələbə həyatı idi.***
***Dörd il nə tez ötdü, vaxta nə deyim?***
***Dörd il dörd misralıq bayatı idi.***

Əyyub Sədinin nəğmələrə çevrilmiş şeiri:

***Çaylar kimi axaram,***
***Şimşək olub çaxaram,***
***Gözlərinə baxaram,***
***Gözüm yandırar səni.***

Sonra birliyin 25 illik sükut dövrü. 2015-ci ildə "İranlı Mühacirlər Cəmiyyəti" İB-nın təkidi ilə yanvar ayından birlik yenidən bərpa olundu. Belə desək, yeni mərhələnin təmsilçilərinin şeirləri, publisisttik yazıları, nəsr əsərləri müntəzəm olaraq ölkə mətbuatında dərc edilməkdədir.

Dövlətimizin və xalqımızın böyük Qarabağ dərdi var. Nankor ermənilərin təcavüzü nəticəsində 1 milyon qaçqınımız öz doğma ev - eşiklərindən, ata-baba yurdundan olub. Onların içərisində neçə-neçə iranlı mühacir ailəsi də var. Həmvətənlərimiz həyatda ikinci dəfə qaçqınlıq faciəsi yaşayırlar.

Qaçqın ailələri içərisində yaradıcı insanlar da var. Çalışıb onları da Ədəbi Birliyimizə gətirir yaradıcılıq potensiallarını üzə çıxarırıq.

Beləliklə üçüncü, yeni ədəbi bir dövr başlayıb. Araz boyu həsrətimiz azalıb, Azərbaycan dünyanın bir çox ölkələri ilə dostluq edir. O, cümlədən İranla da dostluq, qonşuluq əlaqələri, mədəni əlaqələr genişlənir. Bu əlaqələr yeni yazılan əsərlərin də mövzudur.

***Poeziyanın ritmi dəyişilməlidir.***
***Qeyrətli adamın sözü ağırdı***
***Söz dağı görürsən dağdan aşırır.***
***Sözün qılınc kimi kəsəri vardır,***
***O, da Vətənimin vətəndaşıdır.***

Arzu və istəyimiz budur ki, gənclərimiz yenə də torpağımıza, xalqımıza sədaqətli, yaradıcılığa məsuliyyətli olsunlar.

## Hər gün Almaniyadan Avstriyaya yüzlərlə mühacir qovulur



Almaniya başçıları mühacirlərlə daha qətiyyətli davranmaq niyyətindədirlər.

Avstriya da 2015-ci ilin dekabrında yüzlərlə mühaciri bu ölkədən çıxararaq, Sloveniyaya göndəribdir.

Belə görünür ki, Avropada mühacirət böhranı 2016-cı ilin ən böyük problemidir.

Almaniya hökumətinin bildirdiyinə görə, 2015-ci ildə adları qeydə alınmış bu ölkə mühacirlərinin sayı təqribən bir milyon yüz min nəfər olubdur ki, onların dörd yüz min nəfərindən çoxu suriyalıdır.

Almaniya Avropanın ən böyük iqtisadiyyatının bir sahibi kimi ötən il Avropa Birliyi ölkələri arasında ən çox mühacir qəbul edibdir.

Avstriya polisi bildirib ki, Almaniya hər gün yüzlərlə mühaciri həmin ölkəyə qovur.

Press TV-nin məlumatına görə, adının gizli qalmasını istəyən bir avstriyalı polis rəsmisi bazar ertəsi günü deyib ki, 2016-cı ilin əvvəlindən bəri yüzlərlə mühaciri Avstriyaya göndəriblər.

Onun sözlərinə görə, Avstriyaya göndərilən mühacirlərin əksəriyyəti Əfqanıstan, İraq və Mərakeşdəndir.

**Nyu-York şəhərinin bir addımlığında olan Ellis Adasından ABŞ-a 25 milyondan çox insan daxil olub. Çoxları üçün bu ada amerikalı olmaq istiqamətində ilk dayanacaq, ilk addım idi. Ellis adasının ən çox mühacir qəbul etdiyi illər 1892-1954-cü illərdə olub. Elə ilk azərbaycanlının da ABŞ-a gəlişi bu dövrə təsadüf edir.**

## Amerikana proqramı Ellis adası və ABŞ-a gələn ilk azərbaycanlını araşdırır

Bu barədə bir qədər sonra danışacağıq, hələlik isə Ellis Adasının əvvəlki və sonrakı tarixindən bəhs edən sərgiyə nəzər salırıq.

Nyu-York buxtasındakı Ellis Adası hazırda turist məkanıdır. Ada bu cəhətdən yalnız Azadlıq Abidəsindən geri qalır. Çoxları buraya öz əcdadlarını tapmaq, onların öz ölkələrini nə üçün tərk etməsi haqda məlumat əldə etmək üçün gəlir.

Ancaq əlbəttə ki, Ellis Adası açılmamışdan əvvəl və ada bağlanandan sonra da ABŞ-a çoxsaylı mühacir gəlib. "Amerikada köksalma" adlanan sərgi bütün mühacirət dövrlərinə həsr olunub.

İnsanların minilliklər boyu miqrasiyasını göstərən qlobusla açılan sərgi geniş mənzərəni əhatə edir.

Stefan Briqanti Azadlıq Abidəsi-Ellis Adası Fondunun icraçı direktoru və prezidentidir: "Çox adam Ellis Adasına gəlib deyir ki, burada mənə aid heç nə yoxdur. Burada məndən danışılmır, mən buraya ya daha əvvəl, ya da çox guman sonra gəlmişəm. Amma siz bu barədə danışmırsınız. Ona görə, birincisi mövzudan kənara çıxmamağa çalışdıq, ikincisi isə inandıq ki, insanların tam hekayəsini danışmaq düzgün addımdır və biz bunu düzgün yerdə etdik".

Sərgi Amerikanın kəşfinin ilk günlərini, koloniyaları və yerli amerikalılarla münaqişələrə də nəzər salır.

Hazırki ziyarətçilərin azad insanlar olmasına baxmayaraq, sərginin tərtibat dizayneri Kley Qiş deyir ki, sərgi ABŞ-ın quldarlıq və muzdlu işçi tarixinin nümayişindən utanmır: "Bəli, quldarlıq olub. Bəzi insanlar öz iradəsindən asılı olmayaraq bura gətirilib, ancaq onlar bu səfər təcrübəsini yaşayıb və yeni torpağa öyrəşməli olub".